# NİTQ MƏDƏNİYYƏTİNİN BƏZİ MƏQAMLARI HAQQINDA

F.A.ŞİRİYEV
*Bakı Dövlət Universiteti*

## ÇIXIŞA HAZIRLAŞMA METODİKASI

Konkret çıxışa hazırlıq natiqin nitqi kimi təyin olunur; o, çıxış edənin qarşısındakı çıxış mövzusu və vəzifələrindən, onun fərdi xüsusiyyətlərindən və auditoriyadan asılıdır.

Natiqin nitqi hazırlanmasının əsas mərhələlərini nəzərdən keçirək.

*1. Mövzunun müəyyənləşdirilməsi.*

İstənilən çıxışa hazırlıq nitq mövzusunun müəyyən edilməsindən başlayır. Bu vaxt müxtəlif situasiyalar mümkündür. Bəzən elə olur ki, müəyyən mövzuda çıxış etmək təklif olunur; nitq mövzusu verilmiş olur. Bu halda natiq onu konkretləşdirməli və dəqiqləşdirməlidir. Burada mühüm məsələ natiqdə və dinləyicilərdə maraq yaratmaqdan ibarətdir.

*2. Mövzunun adlandırılması.*

Nitqin mövzusu seçiləndən sonra onun tərtibi barədə fikirləşmək lazımdır. Nitqin adı aydın, dəqiq, mümkün qədər konkret olmalıdır. O, nitqin məzmununu əks etdirməli, dinləyicilərin diqqətini mütləq cəlb etməlidir. Çıxış mövzusunun uğurlu tərtibi auditoriyanı ələ alır, onları çıxış ediləcək nitqin qavranılmasına hazırlayır.

Mövzunun adının tərtibində bu tələblər gözlənilməyəndə o, dinləyicini özündən uzaqlaşdırır və növbəti çıxışa rəğbət yaratmır. Çox ümumi adlardan da qaçmaq lazımdır. Ümumi adlar bir çox məsələləri işıqlandırmağı tələb edir, ona görə də dinləyicilər onları maraqlandıran suala cavab tapmayanda narazı qalırlar.

Çıxış mövzusunun tərtibi bacarığı təkcə natiqə deyil, həm də müəssisə rəhbərliyinə aiddir.

İclasın gündəliyinin hazırlanması və iclaslar, konfranslar, simpoziumlar zamanı mövzu adlarına xüsusi fikir vermək lazımdır.

*3. Məqsədin tərtibi.*

Nitqə hazırlaşarkən çıxışının məqsədinin müəyyən edilməsinə xüsusi fikir vermək lazımdır. Danışan bilməlidir ki, nə üçün, nə məqsədlə çıxış edir, dinləyiciərdən hansı reaksiyanı almalıdır.

Natiq çıxışa hazırlaşarkən nitq və onun məzmunu üzərindəki ən ümdə məqsədi təyin etməlidir. Əgər çıxış edən nitq təyinatı barədə fikirləşmirsə o, nitqin hazırlanması və səsləndirilməsində (çatdırılmasında) uğur əldə edə bilməz.

Müəyyən məqsəd müəyyənləşməsi olmayanda natiqin mühazirəsinin effektliliyi aşağı enir, dinləyicilərdən arzu olunan reaksiyanı əldə etmək olmur. Deməli, məqsədin müəyyənləşməsi təkcə natiq üçün deyil, həm də onun dinləyiciləri üçündür.

Müxtəlif vaxtlarda görкəmli natiqlər məhz bu cür hərəкət etmişlər.

4. *Materialların seçilməsi.*

Kütlə qarşısında çıxış üçün nitqin hazırlanmasının növbəti mərhələsi materialların seçilməsindən ibarətdir.

Əgər nitqin məzmunu təкcə natiqin şəxsi həyəcanlarından ibarət deyilsə, materialı bir mənbədən yox, bir neçə mənbədən əldə etməlidir. Natiq bir yox, bir neçə jurnal məqaləsi oxumalı, bir neçə кitabdan informasiya toplamalı, müxtəlif müəlliflərin nöqteyi-nəzərlərini müəyyənləşdirməli, onları müqayisə etməlidir. Biblioqrafiк arayış üçün кartoteкaya müraciət olunmalıdır. Mövzu üzrə ətrafdaкılarla söhbət aparılmalı, oxunan mövzu ilə əlaqədar fiкrə gələn müddəalar və faкtlar yazılmalıdır.

5. *Vərdişlərin işlənilməsi.*

Bu mərhələdə çıxışa hazırlıq natiq üçün mühüm olan ədəbiyyatın seçilməsi vərdişini formalaşdırır. Bu vərdişin formalaşmasına təsir edən işlərə aiddir:

1) çıxış mövzusu üzrə vaxtilə oxunmuş ədəbiyyatların xatırlanılması;
2) şəxsi кitabxanaya və кataloqa baxış;
3) кitabxanada кataloqlara baxış;
4) il ərzində çıxmış jurnalın mövzu siyahısına baxış;
5) biblioqrafiк nəşrlərə baxış;
6) sorğu jurnallarına baxış.

Hazırlığın bu mərhələsi elmi mənbələrlə bağlıdır. Çətinliкlə əldə edilmiş bu faкtlar, şübhəsiz кi, nitqin aydınlığı və inandırıcılığı üçündür.

6. *Seçilmiş ədəbiyyatların öyrənilməsi.*

Natiq nitqinin hazırlanmasının mühüm mərhələsi toplanmış ədəbiyyatların öyrənilməsindən ibarətdir. Natiq nitqdə istifadə edəcəyi faкtı ədəbiyyatdan götürməli; müvafiq başlıqları oxumalı, lazımi qeydlər etməli, materialları sistemə salmalıdır.

O, hər şeydən əlavə, özündə müəyyən əhvali-ruhiyyə yaratmalı, özünü psixoloji cəhətdən hazırlamalıdır. Bu mühazirə və çıxışa hazırlıq zamanı çox vacibdir. Natiq çıxış zamanı bu və ya digər məsələni işıqlandırmaq üçün istifadə edəcəyi кitabı bir tapşırıq кimi qarşısına qoymalıdır. Bunlar, hər şeydən əlavə, oxu növündə və кitabla məqsədyönlü işdə natiqə кöməк edir. Kitab üzərində iş onunla ilкin tanışlıqdan başlamalıdır. Məsləhət görülür кi, кitabın nəşr ilinə də fiкir verilsin. Əgər natiq 70-ci illərdə çap olunmuş elmi-populyar кitabçanı oxuyursa, nəzərə almalıdır кi, həmin məlumatlar кöhnəlmiş ola bilər. Ona görə də natiqdən onu maraqlandıran məsələlər üzrə yeni ədəbiyyatlarla tanış olmaq tələb olunur.

Əgər həmin кitablarda ön söz və son söz varsa, onlarla tanış olmaq tövsiyə edilir. Beləliкlə, seçilmiş ədəbiyyatlarla ilкin tanışlıq nitqə hazırlıqda mühüm əhəmiyyət daşıyır.

7. *Oxunmuşlar üzərində fiкirləşilmələr.*

Kitab oxuyarкən oxumanın məzmununu fiкirləşməyə imкan tapmaq, əvvəllər əldə edilmiş biliкlərlə onu əlaqələndirməк vacib məsələdir. Bu, materialı təhlil etməк, sistemləşdirməк, lazımi nəticələr çıxarmağa кöməк edir.

Oxunmuş materialın dərк olunmasının mühüm əlamətlərindən biri onun məzmununun natiqin öz sözləri ilə ifadə olunmasından ibarətdir.

Bu, öz fikrini auditoriya ilə həmişə bölüşdürən natiq üçün çox vacibdir. Belə olduqda kitabçanın, kitabın və ya məqalənin məzmunu yaddaşda möhkəmlənir. Oxunmuş materialın şərhi natiq üçün özünəməxsus məşqdir.

*8. Oxunmuşların qeydi.*

Mühazirəyə, çıxışa hazırlaşarkən oxunmuş materiallar əsasında qeydlər etmək mütləq lazımdır. Qeydin ən sadə forması qısa qeydlərdir. Burada onlar qeydə alınır ki, öyrənilən məsələyə aiddir, yaxud həmin materiallar ya indi, ya da gələcəkdə lazım olacaq. Hər kəs qeydin bu növü ilə tanışdır, lakin həmişə qeydlər düzgün aparılmır. Bəzi hallarda götürülmüş materialın hansı mənbədən olduğu və müəllifi göstərilmir. Belə qeydlərdən bəzən istifadə etmək mümkünlüyü azalır; materialın istifadə mənbəyi unudulur; lazım gəldikdə bu şəkildə toplanmış material əsasında mətn təsnif oluna bilmir. Qeydlərin rahat istifadəsi üçün onları düzgün işləmək lazımdır. Qeydlərin kartotekalarda aparılması tövsiyə olunur.

*9. Oxuma.*

Xatırlamaq lazımdır ki, elmi-kütləvi kitabları oxumaq inad, gərginlik, səbr tələb edir. Kitablarla iş fasilələrlə deyil, ardıcıl və sistemli olmalıdır. Hər bir şəxsin həyatı boyu kitabla iş metodu və üslubu yaranır. Ən başlıcası odur ki, iş effektli olsun. Çıxış üzrə ədəbiyyatın oxunması, maraqlı fikirlərə, misallara, sitatlara, statistik rəqəmlərə aid kartoçkaların toplanması kütlə qarşısında çıxışa hazırlığın çox böyük zəhmət və vaxt tələb edən mərhələsidir.

## ÇIXIŞA HAZIRLIQ NÖVLƏRİ

Mətnin yazılı çıxışı asan deyil. Buna görə də çoxları buna həvəslə yanaşmırlar, özlərini inandırırlar ki, onların şifahi çıxışı oxumaqdan daha yaxşıdır. Ancaq buna baxmayaraq, mətnin yazılı hazırlığı çox üstünlüklərə malikdir. Yazılı nitqi yoxlamaq, düzəltmək mümkündür. Onu iş yoldaşlarına göstərmək, yoxlanılmaq üçün mütəxəssisə vermək, beləliklə, məzmunu və şərh məzmununu yüksəltməyə nail olmaq mümkün olur. Yazılı nitq sonralar yaxşı xatırlanılır, yaddaşda yaxşı həkk edilir. Bundan əlavə, yazılı mətn natiqi intizamlı edir, təkrardan qaçmaq imkanı verir, onun nitqi çox inamlı olur. Əvvəlcə qaralama yazmaq olar (üslubi xətalara fikir verməyərək). Sonra düzgün olmayan ifadələri, səhvləri, artıq hesab edilən qeydləri təmizləyərək yazmaq olar.

## ÇIXIŞ MATERİALININ ÖYRƏNİLMƏ METODİKASI

Çıxış mətni yazılandan sonra natiq belə bir inamla özünü razı salmamalıdır ki, o, dinləyicilərlə görüşə hazırdır. Unutmaq olmaz ki, çıxış materialının əldə olunması natiqlik fəaliyyətində çox məsuliyyətli mərhələdir. Bəzən bu mərhələyə məşq kimi baxılır.

Əlbəttə, natiq tribunaya çıxıb əlyazma üzrə nitqin mətnini oxuya bilər, ancaq bu, natiqə uğur gətirə bilməz. Dinləyicilər nitqin vərəqdən oxunmasına mənfi münasibət bəsləyir; natiqlə auditoriya arasında canlı əlaqə olmur.

Mitinqdə, təntənəli mərasimlərdə salamlama, banketlərdə nitq mətnini tutmaq asan olmur, buna baxmayaraq, dəqiq formalaşmamış fikir, uğuruz ifadə, sözün düzgün işlənilməməsi natiqə ziyan gətirə bilər. Ona görə də, qabaqcadan hazırlanmış və öyrənilmiş mətni şifahi səsləndirmək daha yaxşıdır. Əgər mətn qısadırsa, bu natiq üçün çox da çətin deyil; əgər çıxışı məruzələr, məlumatlarla zəngin etmək lazım gəlirsə,

mətni tam öyrənmək hamı üçün asan olmur. Yazılmış mətni isə sözbəsöz səsləndirmək də tövsiyə olunmur.

### MƏTNLƏ ÇIXIŞ

Bir çox natiqlər mətnə arxalanaraq çıxış etməyi təkid edirlər. Bu nə deməkdir? Yazılmış mətn üzərində yaxşı fikirləşmək, haqqında danışılan məsələni təhlil etmək, əsas fikri hissələrə ayırmaq, onlar arasındakı fikri əlaqəni fikirləşmək, mətni bir neçə dəfə oxumaq, onu səsli oxuyaraq mətnin plan və məzmunlarını bərpa etmək mümkün olur. Yaxşı olar ki, nitq mətni müvafiq şəkildə yazılsın, nitqin əsas müddəası qeyd olunsun, işıqlandırılan məsələlər nömrələnsin, soyadlar və adlar, statistik məlumatlar ayrılsın. Bu halda mətndən çıxış zamanı istifadə etmək asan olur. Səhifəyə nəzər salmaq kifayətdir ki, lazımi materiallar tapılsın, fikrin şərhi və gedişi bərpa olunsun.

### QEYDSİZ ÇIXIŞLAR

Natiq kütlə qarşısındakı çıxışa vərdiş etdikdə, o, təsadüfi faktların təsiri ilə çaşmır, geniş konspektə üz tutur. O, mühazirə mətnindən onunla fərqlənir ki, çıxış orada tam şəkildə yazılmamışdır. Tədricən konspktdən plana keçmək olar; konspektlə planın fərqi ondadır ki, planda nitqin fikri məzmunu qeyd olunmur, bu məzmunun açılması, genişlənməsi istiqamətinin sistemi verilir. Ən mühümü isə odur ki, plan maddələrinin yaradılması bu və ya digər fikri blok formasında cəmləyir və nitqin süjeti haqqında kifayət qədər dəqiq təsəvvür yaradır.

Nitqdə improvizasiya yalnız əvvəlcədən alınmış böyük bilik bazası əsasında mümkündür.

### NİTQİN STRUKTURU

Kütlə qarşısındakı nitqin uğurlu olması üçün seçilmiş mövzu üzrə ədəbiyyatın öyrənilməsi kifayət etmir, maraqlı məlumatlar tapmaq inandırıcı faktlar, rəqəmlər, misallar toplamaq, materialları necə yerləşdirmək, hansı ardıcıllıqla şərh etmək barədə fikirləşmək lazımdır. Natiqin bir sıra, o cümlədən nitqi hansı sözlərlə başlamaq, danışığı necə davam etdirmək, nitqi necə qurtarmaq, dinləyicinin diqqətini necə cəlb etmək, onu sonacan necə əldə saxlamaq kimi suallarla üzləşməsi labüddür. Buna görə də, nitq kommunikasiyası üzərində ciddi işləmək lazımdır.

### KOMMUNİKASİYA

Kompozisiya termini latınca olub, qurma, uyğunlaşdırma deməkdir. Natiqlik sənəti nəzəriyyəsində nitq kompozisiyası dedikdə, nitqin qurulması, onun ayrı-ayrı hissələri arasındakı münasibət və hər bir hissənin çıxışa bütöv bir vahid kimi münasibəti başa düşülür. Bu anlayışın adlandırılması üçün kompozisiya sözü ilə yanaşı, ona fikri cəhətdən yaxın olan qurulma struktur sözləri işlədilir. Qayda üzrə nitqin düzgün qurulması üzündən çıxışın ayrı-ayrı hissələri arasındakı əlaqə pozulur, natiq qarşısına qoyduğu məqsədi yerinə yetirə bilmir.

### PLANIN İŞLƏNİLMƏSİ

Nitqin kompozisiyası üzrə işə girişərkən hər şeydən əlavə, materialın şərhi cərgəsi təyin edilməklə plan tərtib olunmalıdır. Nitqin hazırlığının müxtəlif mərhələlərində müxtəlif məqsədlər və təyinatlar üzrə

planlar tərtib olunur. Çıxış mövzusu seçiləndən sonra gələcək nitqin planının tərtibi tövsiyə olunur. Adətən hər mövzu bir çox məsələlərin həllini tələb edir. Ona görə də, nitqinizdə hansı suala cavab verməyi nəzərdə tutduğunuzu o dəqiqə təyin etmək vacibdir. Yuxarıda sadalanan məsələlərdən çıxış üçün faktik materialların məqsədyönlü şəkildə ədəbiyyatın seçilməsinə kömək edən ilkin plan tərtib olunur. İlkin plan natiq tərəfindən çıxış mövzusuna xüsusi qərarını, həmin problemə onun şəxsi münasibətini əks etdirir.

**İŞ PLANI**

Ədəbiyyat öyrəniləndən, mövzu fikirləşiləndən, faktik material toplanılandan sonra iş planı tərtib olunur. İş planında ayrı-ayrı müddəalarda düzəlişlər aparılır, misallar göstərilir, faktlar sadalanır, nitqdə istifadə olunan rəqəmlər verilir. İş planının tərtibi çıxışın strukturunu daha yaxşı düşünməyə kömək edir. İş planı çıxışın strukturu və məzmunu barədə mühakimə irəli sürməyə də imkan verir.

İş planı bir neçə variantda ola bilər. Məhz buna görə də çıxış üzərində iş prosesi zamanı o dəqiqləşdirililr, ixtisar olunur və ya genişləndirilir.

**ƏSAS PLAN**

Natiqə məsləhət görülür ki, iş planı əsasında əsas planı tərtib etsin. O, natiqdən daha çox dinləyicilərin qavrama prosesini yüngülləşdirmək üçün yazılır. Əsas planın maddələrinin verilməsi həddən artıq dəqiq və aydın olmalıdır. Bu plan dinləyicilərə çıxış mövzusu elan ediləndən və ya nitq məqsədinə aydınlıq gətiriləndən sonra məlumat verilir.

Buna da fikir vermək lazımdır ki, nitq planı həmişə natiq tərəfindən elan edilmir. Bu nitqin növündən, auditoriyanın tərkibindən və əhvali-ruhiyyəsindən, natiqin məqsədindən asılıdır. Çox vaxt plan mühazirələrdə, məruzələrdə, elmi məlumatlarda verilir.

Salamlama, ruhlandırıcı, inandırıcı və çağırış nitqlərində planın elan edilməsi yersizdir.

Sadə plan şərhin əsas hissələrinə aid olan bir neçə bənddən ibarət olur.

Mürəkkəb plan çıxışın əsas hissəsi və nəticəsindən ibarətdir. O, məntiqi cəhətdən möhkəm, ardıcıl olmalı, bir maddədən digərinə keçid təbii olmalıdır.

**ÇIXIŞ**

Çıxışın müvəffəqiyyəti daha çox auditoriyanın marağından asılıdır. Uğursuz başlanğıc dinləyicilərin marağını aşağı salır, mövzu üzrə onların diqqətini dağıdır. Nitqdə məzmunun aktuallığı və onun məzmununun auditoriya üçün əhəmiyyəti qeyd olunur, çıxışın məqsədi və qısa məzmunu, məsələnin qısa tarixi şərh olunur.

Natiq çıxışından əvvəl mühüm psixoloji məsələ dayanır ki, bu da dinləyicini verilmiş mövzu üzrə qavrayışını psixoloji cəhətdən hazırlamaqdan ibarətdir.

Adətən, dinləyicilər nitq başlayana qədər müxtəlif əhvali-ruhiyyədə olurlar; onlar müxtəlif emosiyalarla yaşayırlar. İştirakçıların bəzilərini çıxışın mövzusu maraqlandırır: onlar həmin mövzu üzrə biliklərini dərinləşdirmək istəyirlər, ümid edirlər ki, onları maraqlandıran suallara

cavablar olacaqdır. Digərləri isə zərurətin gücü ilə iştirak edirlər. Ona görə də nitqin başlanğıcına xüsusi fikir verməlidir: nitq birinci cümlədən cəlbedici, dinlənməyə təhrikedici olmalıdır.

Təcrübəli natiqlər çıxışlarına maraqlı misallar, atalar sözləri və məsəlləri, qanadlı sözlər, yumoristik qeydlərlə başlayırlar.

Yaxşı başlanğıc tapmaq üçün çox işləmək, fikirləşmək, axtarmaq lazımdır.

Hər bir mövzu xüsusi başlığa malik olmalıdır.

**QEYDLƏR:**


1. Кузнецов И.Н. Современная риторика. М.: 2003.
2. Сонер А.П. Основы искусство речи. Ростов на Дону: 2002.
3. Волков А.А. Основы риторики. М.: 2003.
4. Петров О.В. Риторика. Учебник, М.: 2007.
5. Цицерон М.Т. Речи. В 2 т. М.: Наука, 1993.


## О НЕКОТОРЫХ АСПЕКТАХ КУЛЬТУРЫ РЕЧИ


**Ф.А.ШИРИЕВ**


### РЕЗЮМЕ


В статье высказываются предположения о некоторых аспектах культуры речи. Здесь проанализированы такие отдельные стороны подготовки к выступлению, как определение темы и выбор названия, оформление цели, изучение выбранной литературы, а также важнейшие элементы риторики – виды подготовки к выступлению, методика материала выступления, структура речи. Положительными особенностями могут считаться ряд предложений и методических указаний по построению речи.


## ON SOME ASPECTS OF SPEECH CULTURE


**F.A.SHIRIYEV**


### SUMMARY


Here the author is dealing with some aspects of a speech culture, where being analyzed such kinds of preparation to speech, as the determining of a topic and choosing of the name, forming of the aim, learning of the chosen literature, and as well as the most important elements of the rhetoric – the types of the preparation to the material of a speech, and the structure of speech. One may have some positive specifities and methodical indications on the structure of the speech.